Səfurə Bayram qızı Allahverdiyeva [59]

KEYFİYYƏTLİ TƏHSİL VƏ MÜƏLLİM HAZIRLIĞI

Keyfiyyətli təhsil güclü dövlət, inkişaf etmiş cəmiyyət deməkdir. Təhsildə keyfiyyətin yüksəldilməsi üçün bütün dövrlərdə müxtəlif nəzəriyyələrdən, metodlardan istifadə edilmiş, eksperimentlər aparılmışdır. Yeni mülahizələr irəli sürülmüş, yeni konsepsiyalar yaradılmışdır, lakin təhsil elə bir sahədir ki, orada inqilab etmək və ya sərəncam verməklə nəyəsə nail olmaq mümkün deyildir. Son illər Respublikamızda təhsil sahəsində bir sıra mühüm işlər görülmüşdür. Yeni təhsil konsepsiyası hazırlanmış, üçpilləli ali təhsil sisteminə keçilmiş, təhsilin məzmununda dünya standartlarına müvafiq yeniliklər aparılmış və aparılmaqdadır.

Bu gün Respublikamızda yüksək mənəviyyata, əxlaqa malik olan, Vətənimizə, xalqımıza, öz soykökünə, millətinə, dilinə, dininə bağlı olan əsl vətəndaşların, gənc nəslin hazırlanmasına ciddi ehtiyac vardır. Bu ehtiyacın ödənilməsində məktəbin və müəllimlərin üzərinə daha çox məsuliyyət düşür.

Müəllim kimdir? Müəllim gələcəyin memarı və qurucusudur. Qədim Yunan filosoflarından tutmuş bu günə qədər müəllim haqqında çox dəyərli fikirlər söylənmiş, onu günəşə, bağbana bənzətmişlər, bəşəriyyətin müəllimsiz keçinə bilməyəcəyini söyləmişlər, çünki müəllim məsələsi millətin ölüm-dirim məsələsidir. Ulu öndər özünün bütün müvəffəqiyyətlərini ona dərs deyən müəllimləri ilə əlaqələndirərək deyirdi: "Əgər müəllim olmasa heç birimiz cəmiyyətdə tutduğumuz yeri tuta bilməz və fəaliyyət göstərə bilmərik".

Göründüyü kimi dahi şəxsiyyət H.Əliyev müəllim peşəsinin bütün peşələrdən daha önəmli və şərəfli olduğunu və özünün bütün uğurlu fəaliyyətinin əsasında müəllim əməyinin durduğunu göstərirdi. Müəllimlərini həmişə böyük hörmət və ehtiramla xatırlayan Ulu Öndər ölkənin inkişafında gənc nəslin milli ruhda tərbiyəsində müəllimlərin rolunu xüsusi vurğulayaraq deyirdi: "Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır".

Müəllim pedaqoji prosesdə aparıcı qüvvədir. Belə ki, o, yaşlı nəslin əldə etmiş olduğu zəngin təcrübəni gənc nəslə verərək, onları müstəqil həyata hazırlayır. Belə bir fikir mövcuddur ki, bir milləti məhv etmək üçün onun müəlliminin və həkiminin savadsız olması kifayətdir. Biri milləti mənəvi cəhətdən, digəri isə fiziki cəhətdən şikəst edəcəkdir. Bu baxımdan bu gün müəllim kadrlarının hazırlanması təhsilin qarşısında duran ən mühüm vəzifələrdən biri və birincisidir. Belə ki, müəllim təkcə bilik verən, tərbiyəçi deyil, o, həm də biliklərin istiqamətləndiricisi, biliyə gedən yolun bələdçisidir. M.İlyasov "Müasir təhsil: ənənədən informasiyaya" kitabında yazır: "Müasir müəllim – informasiya verəndir, bələdçidir, məsləhətçidir, tərbiyəçidir, təşkilatçıdır, rəhbərdir, liderdir, maarifçidir, nəzarətçidir, təlimçidir, tənqidçidir, hakimdir, ekspertdir, qiymətləndiricidir, aktyordur, natiqdir, təbliğatçıdır, müşahidəçidir, tədqiqatçıdır, psixoterapevtir, psixoloqdur, nəhayət yoldaşdır, dostdur, dəstək verəndir və s.".

Göründüyü kimi müasir təhsil, onun mahiyyəti və məzmunu müəllimin daha yaradıcı, dərin biliyə və çevik təfəkkürə malik olmasını tələb edir. Bu müəllimlər isə ali təhsil ocaqlarında və universitetlərdə hazırlanır. Təhsilin məzmununun yeniləşməsi, tədris planları və proqramlarının müasir tələblər səviyyəsində işlənməsi, tələblərin vaxt büdcəsinin normallaşdırılması, ixtisas hazırlığının dərinləşdirilməsi sahəsində nəzərə çarpacaq irəliləyişlər olmuşdur.

Müstəqil Azərbaycan Respublikası 2005-ci ildən Boloniya prosesinə qoşulmuşdur. Bu prosesin əhəmiyyətindən bəhs edən cənab İlham Əliyev çıxışlarının birində deyir: "2001-ci ildən etibarən Azərbaycan Respublikasının Avropa Şurasına üzv olması ölkəmizin Avropa məkanına inteqrasiyasını surətləndirmişdir. Bu proseslərin tərkib hissəsi kimi Azərbaycan Respublikası Avropa ölkəsinin təhsil nazirləri tərəfindən qəbul edilmiş Boloniya deklarasiyasını imzalamaqla Respublikanın ali təhsil müəssisələrinin Avropa təhsil sisteminə inteqrasiyası yolu da mühüm addımdır".

Ölkə prezidentinin bu çıxışı təhsil üzrə dövlət proqramının həyata keçirilməsi, təhsil sisteminin təkmilləşdirilməsi, idarəetmə, təlim-tərbiyə işinin keyfiyyətinin yüksəldilməsinə, dünya təcrübəsinin öyrənilib tətbiq edilməsinə şərait yaratdı.

Göründüyü kimi müasir təhsilin mahiyyəti və məzmunu müəllimin daha yaradıcı, çevik təfəkkürə və dərin biliyə malik olmasını bir vəzifə kimi qarşıya qoyur. "Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda (2013) deyilir: "Müəllim amili təhsilalanın öyrənilməsi və inkişafı, nailiyyətlərinin monitorinqi prosesində həlledici rol oynayır. Təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri müəllimin akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən çox asılıdır. Müəllimin bu keyfiyyətləri ilə təhsilalanların nailiyyətləri arasında sıx korrelyasiya mövcuddur". Göründüyü kimi burada xüsusi vurğulanan akademik bacarıqlar, tədris təcrübəsi və peşəkarlıq səviyyəsi ifadələri müasir müəllimi xarakterizə etməklə yanaşı, həm də onun modelini qurmağa əsas verir.

Uzun illərdi universitetin ayrı-ayrı fakültələrində müəllim qruplarında Pedaqogika fənnini tədris edirəm. Müəllimlik peşəsi, onun mahiyyəti, necə çətin və şərəfli olması ilə bağlı fikirlərimi tələbələrlə bölürəm. Müəllimin əsas qayəsi bu peşənin çətinliklərinə dözmək, öz ömrünü şam tək əridib, gənc nəslin ömür yolunu işıqlandırmaqdır. Tələbələrə sual verdikdə ki, gələcək müəllim kimi özünüzü necə görürsünüz? Cavablar müxtəlifdir. Bəzi tələbələr bu peşəni sevdiklərini, bu haqda gələcək xoş arzularını söylədikləri halda, bəzən əksər tələbələr müəllim olmaq istəmədiklərini çəkinmədən etiraf edirlər. Buradan belə bir sual yaranır: müəllimlik peşəsini sevməyən, onun çətinliklərinə hazır olmayan bu tələbələr gələcəkdə necə müəllim ola bilər? N.Tusi yazırdı: "Kimin nəyə qabiliyyəti varsa, onunla məşğul olsa, tez nəticə verər, böyük sənətkar olar, əks təqdirdə zəhmət hədər gedər, ömür puç olar".

[59] **BDU-nun Pedaqogika kafedrasının dosenti, Əməkdar müəllim**

Müəllim olmaq üçün ik növbədə bu peşəni sevmək, yüksək əxlaqi keyfiyyətlərə malik olmaq, nəzəri bilik, səbr, təmkin, ünsiyyət yaratmaq, öyrətmək qabiliyyəti və s. vacibdir. Uzun illərin təcrübəsi və müşahidələrim əsasında deyə bilərəm ki, əsl müəllim olmaq üçün müəllim doğulmaq vacibdir. Elə bir müəllim ki, o, təkcə öyrətmir, ondan öyrənmək istəyirlər, o, bilik mənbəyi, bilik qaynağıdır.

Mənim müəllim M.İlyasov "Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri" kitabında yazır: "Cəmiyyətimizdə təhsilin və tərbiyənin funksiyası getdikcə artır. İndi təkcə ali təhsil alıb, diplomlu olmaq hər şeyi həll etmir. Bacarıq, səriştə, öz irsini yaxşı bilmək, çevik ağıl nümayiş etdirmək, rəqabət qabiliyyətli olmaq, yeni texnologiyalara yiyələnmək kimi keyfiyyətlər önə çıxır. Buna görə də müasir ali pedaqoji təhsil müəssisələri müəllim hazırlığında cəmiyyətin artan tələblərinə cavab verə biləcək belə kadrların hazırlanmasına diqqəti artırmalıdır. Kadrların hazırlıq istiqaməti onların peşə, ixtisas və mənəvi hazırlıq səviyyələrinin əlaqələndirilərək praktik müəllim hazırlığına yönəldilməlidir. Bunun üçün ali pedaqoji təhsil müəssisələrində aşağıdakı bir sıra istiqamətlərdə fəaliyyətin reallaşması olduqca əhəmiyyətlidir: tələbələrin peşə və ixtisas hazırlığının Avropa təhsil standartlarına uyğunlaşdırılması; pedaqogika və psixologiya fənlərinin tədrisinin təkmilləşdirilməsi, pedaqogika və psixologiya fənlərindən elmi-tədqiqat işlərinin gücləndirilməsi; pedaqogika fənni üzrə təhsil səviyyələri arasında varisliyin gözlənilməsi; tələbələrin pedaqoji təcrübəsinə ayrılan vaxtın artırılması və təcrübəyə rəhbərliyin tapşırılması".

Göründüyü kimi müəllim hazırlığı bu günün ən aktual, ən vacib problemlərindəndir. Bir məsələni unutmaq olmaz ki, bütün yollar müəllimlərin öz ixtisasını, peşəsini sevməsindən, öz üzərində daim çalışmasından çox asılıdır. Bumənada "Təhsil əsri" olan XXI əsrdə bu günün məktəbinə yüksək, elmi-nəzəri və pedaqoji-psixoloji hazırlığı olan, öz məsuliyyətini dərk edən, yaradıcı, yeni fikirli, yeni texnologiyalara yiyələnən, öz peşəsinin vurğunu olan, gələcəyimiz olan uşaqları sevən, qayğısına qalan müəllimlər lazımdır. Qeyd olunduğu kimi bu müəllimlər isə ali təhsil ocaqlarında, universitetlərdə hazırlanır.

Müəllim bütün ömrü boyu öyrənməli, öz üzərində çalışmalı, yeniliklərlə tanış olmalı, öz fəaliyyətlərində bunları nəzərə almalıdır. Tələbələr müəllimlik peşəsi ilə bağlı pedaqogika dərslərində nəzəri bilikləri mənimsəyir. Pedaqoji təcrübə müddətində məktəbdə aparılan tədbirlərdə, dərslərdə iştirak etməklə yanaşı həm də işin icraçısı, aparıcısı və təşkilatçısı kimi çıxış edir. Çünki, bu günün tələbələri gələcək müəllim kimi şəxsi keyfiyyətləri, qabiliyyətləri pedaqoji təcrübədə qazanır, müəllim kimi formalaşır. Onlar pedaqoji təcrübə müddətində pedaqogikadan öyrəndiklərini, nəzəri biliklərini müəllim kimi tətbiq etmək imkanı qazanır, müəllimlik peşəsinin sirlərinə yiyələnirlər. Bu da onların bir müəllim kimi formalaşmalarına təkan verir. Qeyd etdiyimiz kimi müəllimlik asan iş deyil, yaradıcı işdir, belə ki, o, hazır göstəriş və reseptlə işləyə bilməz. Bir neçə il bundan əvvəl kafedrada amerikalı bir akademiklə görüş keçirildi. Onu dinlədikdən sonra suallarla ona müraciətlər oldu. Mən belə bir sual verdim: Siz müəllim seçərkən hansı kriteriyanı əsas götürürsünüz? Cavab belə oldu: ilk növbədə onun ağlını və əxlaqını, mənəvi keyfiyyətlərini.

Bu gün təhsildə bir çox islahatlar keçirilir. Müəllimlərin imtahanla işə qəbulu da bu qəbildəndir. Müəllim bilikli ola bilər, yüksək bal toplaya bilər, ancaq onun şagirdlərə öz peşəsinə olan münasibətini necə müəyyənləşdirmək olar. Əlbəttə, bu müəllimlər müsahibədən də keçirlər. Müsahibə aparan müəllimlər təcrübəli, bu sahədə səriştəsi olan şəxslərin olması vacibdir. Bütün bunlarla yanaşı xüsusi kursların, seminarların təşkil olunması müəllim hazırlığına müsbət təsir göstərə bilər.

Ədəbiyyat siyahısı

1. Təhsil Qanunu. Bakı, 2009
2. Təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı, 2013
3. M.İlyasov "Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyinin müasir problemləri". Bakı, 2018
4. L.Qasımova, R.Mahmudova. Pedaqogika, Bakı, 2021

Açar sözlər: təhsil, müəllim hazırlığı, şəxsiyyət, tələbə

Xülasə

Məqalədə müasir təhsilin keyfiyyətinin yüksəldilməsində müəllimin üzərinə düşən vəzifələr göstərilərək qeyd olunur ki, bu gün öz məsuliyyətini dərk edən, yaradıcı, yeni fikirli, yeni texnologiyalara yiyələnən, öz peşəsini və uşaqları sevən, zəngin mənəviyyata malik müəllimlər lazımdır.

Bu gün Azərbaycan Respublikasında təhsilin dünya təhsilinə inteqrasiya olunduğu bir dövrdə keyfiyyətli təhsil, milli və ümumbəşəri dəyərlərə yiyələnən gənc nəsil formalaşdırmaq, yeni pedaqoji təfəkkürə yiyələnən müəllim kadrlarının hazırlanması qarşıda duran əsas vəzifələrdəndir.

RƏYÇİ: dos. E.Vəliyeva